BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# «BİR» SÖZÜNDƏN TÖRƏMƏLƏR
## («Azərbaycan dilinin orfoqrafiya lüğəti» üzrə)

**Y.R.YUSİFOVA**
***Bakı Dövlət Universiteti***

**Bir** sözü ümumən türk dillərində, eləcə də Azərbaycan dilində ilk növbədə saydır. Lakın bu söz geniş semantikaya malikdir. Başqa bir məqaləmizdə biz bu haqda ətraflı danışmışıq, ona görə də burada **bir** sözünün mənalarını göstərən bir neçə misalla kıfayətlənmək istəyirik:

1. *Şagird mağazadan **bir** kitab, iki karandaş aldı.*
2. *Bir danış, bir gül.*
3. ***Bir** mən idim, bir sən idin, **bir** də al boya (C.Cabbarlı). Hərə **bir** yerə çəkildi.*
4. ***Bir** də bu yerlərə gələcəkmisən? (S.Vurğun).*
5. *Dəli Kürü at belində keçəndə*
   *Az qalmışdım axıb gedəm **bır** axşam (**S.**Vurğun).*

Bu misallarda qıammatik mövqe baxımından da, məna çaları baxımından da **bir** sözünün incə məna çalarları vardır. Məhz buna gorə də qrammatika kltablarında onu say, ədat, artikl kimi göstərirlər. Biz isə hesab edirik ki, **bir** sözü müxtəlif hallarda say olaraq qalır.

* * *

**Bır** sayı müxtəlif leksik vahidlərin (düzəltmə, ya mürəkkəb sözlərin) birinci komponenti kimi çıxış edir, qrammatık forma və söz yaradıcılığında ilkin variant və çıxiş variantı kimi fəal rol oynayır. Dilçilikdə, xüsusən, qrammatika kitablarında sayların mənaca bölgülərindən biri kımi, miqdar və sıra saylarının adları çəkilir. Sıra sayları belə əmələ gəlir: müəyyən miqdar sayı *+ıncı, -inci, -uncu, -üncü* şəkilçisi. Say samitlə bitəndə şəkilçı bütövlüyünü saxlayır, saitlə bitəndə şəkilçinin birinci saiti düşür: *birinci, ikinci, üçüncü, dördüncü, beşinçi, altınct, yeddinci, səkkizinci, doqquzuncu* və s. Onluqlardan da, yüzlüklərdən də eyni qaydada sıra sayları düzəlir. Təbii olaraq, belə bir sual meydana çıxır: sıra sayı düzəldən şəkilçilərə leksik şəkılçi, sıra saylarına isə düzəltmə söz demək olarmı? Yoxsa bu şəkilçilər forma düzəldən şəkilçilərdır?

M.Hüseynzadə sıra sayını miqdar sayından fərqlənən yeni söz hesab edir. O, yazır: «Sıra sayları məna etibarı ilə müəyyən miqdar sayından əmələ gəlmişdir, lakin bugünkü anlayışda onlar həm məzmun, həm də şəkilcə miqdar saylarından təmamilə fərqlənir. Miqdar sayları heç bir şəkilçi qəbul etmədən müəyyən kəmiyyət ifadə edə bıldiyi halda, sıra sayları xüsusi şəkilçi vasitəsilə sıra və ya dərəcə məzmunu ifadə edir. Deməli, miqdar saylarında şəkli cəhətdən müəyyən dəyişiklik əmələ gəl-

dıкdə onların məzmunu da dəyişmiş olur, yəni əşyanın miqdarını bildirən bir söz onun sırasını bildirən başqa bir söz olur». M.Hüseynzadə misal əsasında fıкrini bir qədər də коnкretləşdirir: «Həqiqətən, *beş cərgə* deyıldiкdə, müəyyən miqdarın (beşdən) nə artıq, nə də əкsiк bir кəmiyyəti təsəvvür edilir, laкin *birinci cərgə* dediкdə, heç bir кəmiyyət təsəvvür edilmır; bir çox cərgədən yalnız biri (beşincısi) dərк edilir. Buradan da beş sözünün bir məfhum, beşinci sözünün başqa bir məfhum ifadə etdiyi meydana çıxır кi, bu da həmin sözlərin zahiri əlamətlərində və daxili məzmunlarında əmələ gəlmiş dəyişiкliyin nəticəsi кimi izah edilə bilər» (4, s.105).

M.Hüseynzadənin bu izahatı belə söz deməyə əsas verir кi, o, sıra saylarını düzəltmə say, yəni düzəltmə söz hesab edir.

Ə.M.Cavadov «Azərbaycan dilinin qrammatiкası»na yazdığı «Say» bəhsində sıra saylarını düzəltmə say hesab edır və göstərir кi, onlar şəкilçilər vasitəsilə müəyyən miqdar saylarından düzəlir. (1, s.77)

Burada mübahisə elməк olar. Əslində, sıra saylarının şəкilçiləri müəyyən miqdar sayının daxili məzmununu dəyişdirə bilmir, beş elə beş olaraq qalır, üç də *elə* üç olaraq qalır; bu şəкilçilər, müəyyən mənada, əlaqə yaratmağa xidmət edir. Bununla belə biz ənənəni pozmaq fıкrində deyiliк. Biz də sıra saylarını həm yeni növ, həm də düzəltmə söz (düzəltmə say) кimi qəbul etməyin tərəfdarıyıq.

* * *

Sayların bəzən *-ca* (bəzən də *-la)* ədatı ilə işlənməsi də maraq doğurur Bu hissəciк (əslində ədat), bir qayda olaraq, кiçiк saylara *(bircə, iкicə, üçcə, dördcə, beşcə)* əlavə olunur, Daha çox isə **bir** sayına qoşulur: **bircə**. Burada yeni say əmələ gəlmir, ancaq sayda incə bır çalar özünü göstərir. Daha doğrusu, **bircə** məhdudlaşdırıcısı ədat кimi çıxış edir. Laкin bunun ədat кimi, mövqe fərqi var. Məsələn; ***Bircə*** *səni görəydim* - cümləsində vurğudan asılı olaraq, **bircə** sözünün aidiyyatını müəyyənləşdirməк olar. Əgər məntiqi vurğu *sən* sözünün üstünə düşərsə, **bircə** sözü *sən* sözünə aid olacaqdır. Bu halda belə məna alınacaqdır: *Başqasını yox, səni görəydim.* Əgər vurğu *görəydim* sözünün üzərinə düşərsə, bu halda həmin cümlədə **bircə** sözü *görəydim* sözünə aid olur. Mənaca görməк arzusunun gerçəкlıyi irəli çəкilir. *–cə* ədatı saylarda miqdar azlığına təsir edir. **Bir кitab** birləşməsində **bir** sözü кitabın miqdarını bildirir və burada heç bir xüsusi məna çaları görünmür. **Bircə кitab** deyəndə danışan **şəxs**, кitabın nəzərdə tutulduğundan az olmasına işarə etmiş olur. Burada seçim də özünü göstərir və **bircə** sözü *yalnız* ədatın mövqeyində işlənir. Yalnız кitab, **yəni** başqa heç bir şey. *–çə ə*datının, əsasən, кıçıк saylara qoşulmasının səbəbi onun azlıq anlayışı ilə əlaqədardır. Məsələn: *Görüşə iкi adam gəlmişdi. B*u cümlədə *iкi* normal həddir, Görüşə iкicə adam gəlmişdi. Bu cümlədə görüşə gələnlərin azlığına işarə vardır, yəni görüşə az adam gəlməli idi, çox adamın gəlməsi gözlənirdi, ancaq iкicəciyi gəlmişdi. *Üçcə* sözü haqqında da eyni sözləri deməк olar. *–ca, -cə* ədatı, adətən, кiçiк saylara, daha çox isə **bir** sayına qoşulur. *Köməyə bircə nəfər gəlmişdi. Köməyə iкicə nəfər gəlmişdi. Köməyə üçcə nəfər gəlmişdi.* Bunlardan böyüк olan saylar həmin ədatlarla o qədər də çox işlənmir. Bu onunla əlaqədardır кi, azlıq azlıqla uyğun gəlır. **Bir**

azdır. Bu azlığı bir qədər qüvvətləndirmək üçün ona *-cə* ədatı əlavə olunur; azlıq bir qədər də qüvvətləndirilir. *–ca, -cə* ədatı başqa bir cəhətə işarə haqqında məlumatı yada salır. Məsələn, *Gərək ki, görüşə bir adam gəlməli idi, o da gəlibdir.* Bu formada **bircə** forması işlənilməz. Bu o zaman işlədilir ki, gözlənilən birdən çoxdur. Burada kəmiyyət nisbəti meydana çıxır: yəni gözlənilən çoxdur, bir deyil, hər halda birdən çoxdur; *Görüşə ikicə adam gəlmişdi* məntiqi göstərir ki, gözlənilənin ikidən; *Görüşə üçcə adam gəlmişdi* məntiqi isə gözlənilənin üçdən artıq olduğu nəzərdə tutulmuşdur. Sadaladığımız say adları *(bir, iki, üç)* arasında *–cə* ədatının işlənmə tezliyinə görə **bircə** xüsusilə seçilir. Burada tərs mütənasiblik görünür: say böyüdükcə, işlənmə tezlıyi zəifləyir, say kiçildikcə, işlənmə tezliyi artır. **Bircə** söz formasının məhdudlaşdırıcı mənası da vardır. Məsələn: *Oqtayın **bircə** məqsədi var.* **Bircə** söz forması bu cümləyə belə bır məhdudiyyət verir: Oqtayın başqa bir fıkri yox idi, yalnız bircə məqsədi var idi. Bu cümlədə «**bircə**»ni **bir** sayı ilə əvəz etmək olar və ciddi məzmun dəyişikliyi baş verməz. Lakin üslub dəyişər, bir sözünün məhdudlaşdırıcılıq çaları «bırcə»ninki qədər olmaz. **Bircə** sözü bu mənada *ancaq, yalnız, təkcə* sözləri ilə yanaşı işlənəndə onun məhdudlaşdırıcılığı bır qədər də artır: *Oqtayın **təkcə** **bircə** məqsədi var idi. Oqtayın yalnız **bircə** məqsədi var idi. Qqtayın ancaq **bircə** məqsədi var idi.*

Dilçiliyimizdə **bircə** formasının bir leksik vahidə bərabər tutulması halları özünü göstərir. AEA-nın 1960-cı ildə nəşr edilmiş «Azərbaycan dılinın qrammatikası»nda *-cə* ədatı şəkilçi kimi götürülür: «**Bir** miqdar sayı *-cə* şəkilçisini qəbul etdikdə tam vahidlik mənası bildirir». (1, s,76) «Tam vahidlik mənası»nın nə məzmunda işlənməsi açıqlanmır və bu ifadənin mənası qeyri-müəyyən qalır... *«Sona xalanın **bircə** dərdi vardı, o da oğlunu evləndirməkdi. (S.S.Axundov)»,* «Elm» nəşrıyyatının çap etdiyı «Müasir Azərbaycan dili» adlı üçcildlik əsərinin morfologiyaya aid ikinci cildində (1980) **bircə** bir leksik vahid kimi ədat hesab edilir. Buna aid belə misal verilir: «**Bircə** və **təkcə** ədatlarında məhdudlaşdırma, ayırma, fərqləndirmə çalarları yaradır» (2, s.450). Misalları belədir; *«**Bircə** kətanı çərçivəyə çəkib astar rəngini vurmaq qalırdı.»* (İ.Qasımov, H,Seyidbəyli). ***Bircə** demədin ki, turşu yeyim, yoxsa yox?* (P.Makulu). M.Hüseynzadə **bircə** formasına ikili münasibət bildirir. Onu bır halda əmr mənasını qüvvətləndirən ədat kimi təqdim edir. O, yazır: «Dilimizdə **bir** və **bircə** ədatları da vardır kı, bunlar əmr cümlələrində işlənir və cümlədə təkid, hədə, təsəlli, nəsihət mənalarını daha da qüvvətləndirir. Yuxarıda göstərilən mənaları verərkən də ifadəni qüvvətləndirir. Bu ədatlar ona görə də vaxtilə əmr ədatları sırasında verilmişdir. Əslində isə bunlar əmr mənası yaratmır, cümlədə əmr mənasını qüvvətləndirməyə xidmət edir (4, s 29İ) . **Bircə** sözünə aid o, belə misallar verir: *Əllərin ağrımasın, Şatır dadaş, **bircə** tez ol* (Makulu). ***Bircə** gəl bu tərəfə* (Makulu). M.Hiiseynzadə **bircə** haqqında məhdudlaşdırıcı ədatlar sırasında da danışır: «**Bircə** ədatı. Bu ədat müxtəlıf mənalar daşıyan **bir** sözünə dəqiqləşdirici *-cə* morfemini artırmaqla düzəlir, özündən sonra gələn söz və ya söz birləşməsinin mənasında məhdudluq yaradır» (4,

s.294). Bunun misalları belədir: ***Bircə** onu əlavə etmişdi ki, arvadın demoqoqu dəhşətlidir* (M.İbrahimov), ***Bunu bircə** onlar bilir* (Makulu).

**Bircə** sözünün həm ədat adlandırılması ilə, həm ona verilən qrammatik məna açıqlaması ilə razılaşmaq olar. O da doğru qeyd edilir ki, **bircə** iki hissədən ibarətdir: **bir** sayı və -cə ədatı. Bircə ədatı rus dilindəki только ədatına uyğun gəlir (5, s.260).

«Lüğət»də **bircə** sözü ilə yanaşı, *bircənin* sözü də var. **Bircə** sözü **bir** sözündən, *bircəcik* sözü isə **bircə** sözündən əmələ gəlmişdir. Bunlardan birincisində *–cə* ünsürü, ikincidə *cik* ünsürü iştirak edir. M.Hüseynzadə *–cik* şəkilçisini isimlərdə dərəcə şəkilçisi kimi qəbul edir. O, yazır: «Bu şəkilçi vasitəsilə Azərbaycan dili isimlərindən kiçiklik və əzizləmə məzmunu bildirən isimlər düzəlir: evcik, gözcük» (4, s.29). **Bircəcik** və **evcik** sözlərindəki *–cik* şəkilçisinin eyniliyi və ya müxtəlifliyi haqqında mübahisə etmək olar. Lakin onların hər iki halda bir-birinə yaxın mənada işləndiyini inkar etmək çətindir. Ancaq onları eyniləşdirmək də olmaz. *Evcik* sözündəki *–cik* ev sözündən evə bənzər «oyuncaq ev» mənası əmələ gətirir. Adətən, uşaqlar cürbəcür vasitələrlə evciklər düzəldirlər. Burada müqayisə var: *ev* və *evcik*. Ev yaşayış üçündür, *evcik* ev tipindən düzəldilən kiçik oyuncaqdır. «Bircəcik»də isə bu məna yoxdur, ancaq azlıq mənasını qüvvətləndirmək çaları var. Burada başqa bir cəhət də vardır. *Cik* birbaşa ismə, yəni ismin kökünə qoşula bilir; *ev-cik, göz-cük*. O, sayın kökünə qoşula bilmir. *Bircik* forması yoxdur, o, *-cə* ədatından sonra işlənir: *bir–cə–cik*. Belə sual da meydana çıxa bilər: *bircəcik* ayrıca leksik vahiddir, ya yox? Ayrıca leksik vahıddirsə, hansı nitq hissəsinə aiddir? Biz belə hesab edirik ki, nə *bircə*, nə də *bircəcik* yeni sözlər deyil, bunlar yeni formalardır. Yəni məsdər, feli bağlama, feli sifət yeni nitq hıssəsi olmayıb, felin formaları olduğu kimi, *bircə, bircəcik* də sayın formalarıdır və onlar say olaraq qalırlar. «Lüğət»də *bircəyiz* forması da var. Quruluşu belədir: bir–cə–(y)–iz. Qeyd edək ki, «Orfoqrafiya lüğəti»nə daxil edilsə də, bu, ədəbi dil sözü deyildir, danışıq dilində az işlənən sözdür. Nitq hissəsinə görə, onu say hesab eləmək olar, ancaq o, əvəzliyə daha yaxındır. «Lügət»də *bircəyiz* sözünün *bircəyəz* variantı var. Bunlar fonetik variantlardır və daha çox danışıq dilinə məxsusdur. «Azərbaycan dilinin orfoqrafiya lüğət»ində **bir** sözü ilə başlanan xeyli düzəltmə, xüsusən də mürəkkəb söz vardır.

Bunlardan bəzilərini izah edək.

**Birdən**: Bu söz formaca bir sayı ilə ismin çıxışlıq hal şəkilçisinin (*-dən*) birləşməsi şəklindədir: *bir+dən*. Hərfi, yəni adi mənasında bu forma **bir** sayının hallanmasının bir həlqəsidir: *Birdən ıkini çıxmaq olmaz*. Ancaq həmin forma lüğətə bu mənada düşməmişdir, bir lüğəvi vahid kimi, yəni düzəltmə söz kimi düşmüşdür. Qrammatika kitablarında **birdən** forması zərf, həm də düzəltmə zərf kimi təqdim edilir. Bu halda sual meydana çıxır: əgər **birdən** düzəltmə sözdürsə, deməli, ***-dən*** şəkilçisi də leksik şəkilçidir. O zaman ziddiyət əmələ gəlir. Həqiqət isə belədir: *-dən* qrammatik şəkilçidir və hər iki halda qrammatik şəkilçi olaraq qalır:

***Birdən** ikini çıxmaq olmaz.*
*Birdən qapı açıldı.*

Bunlar morfoloji cəhətdən belə təhlil edilir: birinci **birdən** iki qrammatik morfemdən ibarətdir: kök morfem *(bir) və* şəkilçi morfem (-dən). **Bir** sözü ismin çıxışlıq halındadır. İkincisi, **birdən** bütöv halda zərf, tərzi-hərəkət zərfidir. Bunun fonmalaşma yolu belədir. Çıxışlıq hal şəkilçisini qəbul etmiş **bir** sözü **birdən** formasında təkrarlanaraq adverbiallaşmış və bütöv halda zərfə çevrilmişdir.

**Biri** sözü də, təxminən, eyni yolu keçmişdir. Bu sözün sonundakı *-i* şəkilçidir, üçüncü şəxsin mənsubiyyət şəkilçisidir. *Onlardan biri, onların biri, tələbələrin biri, tələbələrdən biri* tipli birləşmələrin ikinci tərəfidir. Belə vəziyyətdə həmin forma morfoloji cəhətdən iki morfemdən ibarətdir: sözün kökü *(bir)* və şəkilçi (*-i*). *-i* mənsubiyyət şəkilçisi olmaqla qrammatik şəkılçıdir. Ancaq **biri** orfoqrafiya lüğətinə morfoloji cəhətdən parçalana bilməyən leksik vahid kimi düşmüşdür (3, s.93). Azərbaycan dilində, həqiqətən, belə söz vardır: **biri** Nağıllarımız, adətən, belə başlanır: **Biri** vardı, **biri** yoxdu, bİr ölkə var idi. **Biri** sözü qrammatika kilablarında, qeyri-müəyyən əvəzlik hesab olunur (1, s.89, 2, s.184, 4, s.126), Əgər ilkin qrammatik mənada **biri** (onlardan biri) iki morfemdən ibarət (kök və şəkilçi) hesab olunursa, əvəzlik kimi parçalanmır. Dediyimiz kimi, bu forma birdən-birə əmələ gəlməmişdir, uzun inkişaf yolu keçmişdir. Bu yolda birləşmənin ikinci tərəfi olan **biri** forması aid olduğu birinci tərəfdən ayrılaraq müstəqilləşmiş, *-i* şəkılçisi ısə öz şəkilçi əslindən ayrılaraq sözün bir səsinə çevrilmişdir. İndiki halda **biri** sözü saitlə qurtaran bir leksik vahiddir. Qrammatika kitablarında **biri** əvəzliyi ilə eynı sırada **birisi** əvəzliyini də verirlər (4, s.126). **Birisi** sözünün sonundakı *i* saiti də üçüncü şəxsin mənsubiyyət şəkilçisidir, *s* isə birləşdirici samitdir. Belə çıxır ki, bir sözə eyni zamanda eyni şəxsin iki mənsubiyyət şəkilçisi əlavə olunubdur. Dil qaydalarına görə, bu hal mümkünsüz hesab olunur. Deməli, ona görə bu, mümkün olubdur ki, birincı *-i* şəkilçiliyini itiribdir, elə bil ki, saitlə bitən sözə (biri) mənsubiyyət şəkilçisi əlavə olunubdur. Zahirən belə görünür. Məsələ ondadır ki, ikinci mənsubiyyət şəkilçısi də öz əslindən ayrılmış, şəkilçiliyini itirmiş vo o da *ş* birləşdiricisi samiti ilə birlikdə sözün səslərindən birinə çevrilmişdir. Bu halda **biri** sözü kimi, **birisi** sözü də bir leksik vahid olmaqla, qeyri-müəyyən əvəzliklər sırasında verilir və eyni formada orfoqrafiya lüğətinə düşür.

**QEYDLƏR:**


1. Azərbaycan dilinin qrammatikası. I hissə. Morfologiya. Bakı: AEA-nın nəşriyyatı, 1960.
2. Müasir Azərbaycan dili. 3 cilddə. II cild. Morfologiya. Bakı: Elm, 1980.
3. Azərbaycan dilinin orfoqrafıya lüğəti. Bakı: Lider, 2004.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. 4 cilddə, III cild. Morfologiya. Bakı: Maarif, 1983.
5. Болгина Н.С., Розенталь Д.Э., Фомина М.И., Цапукевич Б.В. Современный русский язык. Москва: Высшая школа, 1961.

## ПРОИЗВОДНЫЕ СЛОВА «ОДИН»
**(по «Орфографическому словарю азербайджанского языка»)**

**Е.Р.ЮСИФОВА**

РЕЗЮМЕ

В статье мы рассматриваем несколько грамматических и лексических форм числа «один» как комбинации с различными морфемами.

Вначале мы исследуем порядковые (первый, второй, ...) числа, образованные от числа «один» и другие количественные числа.

Уделяется внимание выяснению их самостоятельности. Затем мы исследуем различные формы слова «один» (бирджа, бири$_5$ бириси, …), их смысловые свойства, а также объясняем их грамматические нюансы.

## THE DERIVATIVES OF THE WORD «ONE»
**(by «Orfografic dictionary of Azerbaijan language»)**

**Y.R.YUSIFOVA**

**SUMMARY**

In the paper we consider some grammar and morphic forms of the numeral «one» as a combinations with various morphims.

First we investigate ordinal numerals formed by the numeral «one» (first, second, ...).

We try to find out either these words are man-made or not. Then we investigate grammar senses of the words (birdje, bin, birisi, ...).